**Qloballaşan dünyada öz bənzərsizliyini qoruyub saxlamaq XXI əsrdə Azərbaycanın mədəni və müstəqilliyini təmin edən strateji vəzifədir. Bundan ötrü cəmiyyətin və millətin intellektual, mədəni potensialının cəmləşdirilməsi tələb olunur. Yalnız bunun sayəsində, başqa ölkələrin hazır modellərini, heç kəsin hərəkətlərini təkrarlamadan, məxsusi və bənzərsiz biliklər cəmiyyəti yaratmaq yolu ilə informasiya cəmiyyəti istiqamətində, intellektual sahədə, təhsil sahəsində ciddi irəliləyişə nail olmaq mümkündür (6, s. 5).**

# Elm və təhsil müəssisələrində kitabxana-informasiya xidmətinin bəzi məsələləri

**Bildiyimiz kimi təhsil insanın, cəmiyyətin və dövlətin inkişafına, maraq və mənafeyinə xidmət edən strateji əhəmiyyətə malik olan fəaliyyət sahəsidir. Respublikamızda təhsil milli zəminə, ümumbəşəri dəyərlərə əsaslanır, demokratik xarakter daşıyır.**

Təsadüfi deyil ki, təhsil sistemi geniş əhatəli, demək olar ki, cəmiyyətin bütün üzvlərinin iştirak etdiyi bir sistem olduğundan mədəni quruculuğun bütün sahələri bu sistemdə iştirak edir, öz fəaliyyəti ilə təhsil prosesinin müvəffəqiyyətli təşkilinə töhfəsini verir.

Sözsüz ki, təhsil sisteminin qarşısında qoyulan strateji əhəmiyyətli mühüm vəzifələrin yerinə yetirilməsində də cəmiyyətin ayrılmaz hissəsi olan kitabxanaların üzərinə məsul vəzifələr düşür.

Qeyd edək ki, təhsil sistemində ardıcıl olaraq iştirak edən, onun təşkilinə kömək göstərən, bilik, bacarıq və vərdişləri yaş xüsusiyyətlərindən asılı olmayaraq təhsil prosesinin bütün iştirakçılarına, şagirdlərdən başlamış ali məktəb tələbələrinə, gənclərdən başlamış fasiləsiz təhsillə məşğul olan yaşlı nəslə aşılayan müəssisələrdən biri də kitabxanalardır.

Kitabxanalar qədim dövrlərdən başlayaraq zəmanəmizə qədər həmişə təhsillə bağlı olmuş, təhsil prosesinə xidmət etmiş, onun köməkçilərindən birinə çevrilmişdir. Məhz buna görədir ki, kitabxanalar bütün təhsil müəssisələrinin bir saylı laboratoriyası hesab edilir. Xalqımızın məktəb tarixinə nəzər saldıqda aydın olur ki, bütün məktəblərin yanında bir qayda olaraq təhsil prosesinin müvəffəqiyyətli təşkilini təmin etmək, məktəbdə verilən bilikləri daha da dərinləşdirmək, onu möhkəmlətmək, təhsil sistemi işçilərini elmi informasiya ilə təmin etmək məqsədilə kitabxanalar yaradılmışdır (3. s. 24-25). Təhsil sisteminin əsas informasiya təminatçısı olan ali məktəb kitabxanaları bilavasitə müəllimlərin, tələbələrin elm və təhsillə bağlı bütün tələbat və sorğularını təmin edir.

Azərbaycan Respublikasının milli kitabxanasından başlamış xüsusi elmi və texniki kitabxanaları, ali məktəb tələbələrinin informasiya tələbatının ödənilməsində mühüm işlər görürlər. Göstərilən kitabxanaların oxucularının yarıya qədərini ali məktəb tələbələrinin təşkil etməsi göstərir ki, respublikamızda təhsil sistemində təkcə təhsil müəssisələri yox, eyni zamanda kitabxanalar da yaxından iştirak edirlər.

Müstəqillik illərində Təhsil Nazirliyinin kitabxana şəbəkəsi dövlətimizin qayğısı nəticəsində olduqca böyük inkişaf yolu keçmiş, təhsilin informasiya təminatında mühüm rol oynamağa başlamışdır. Son on ildə gedən təhsil islahatları ilə yanaşı bu şəbəkə ən çox dəyişikliklərə, yeniləşməyə və təkmilləşməyə məruz qalmaqla daha çox inkişafa nail olmuşdur. Suverenlik illərində Azərbaycan təhsilində baş verən müstəqil proseslər təhsil islahatlarına müvafiq meydana gəlib formalaşan yeni iş forma və üsulları, təhsil sisteminin milli mədəniyyətimizə, milli mentalitetimizə, milli təhsil təcrübəmizə müvafiq yenidən qurulması dövlətimizin təhsil konsepsiyasının nəticəsidir.

Hal-hazırda bu şəbəkəyə 63159366 nüsxə kitab fondu olan 4677 təhsil kitabxanası daxildir. Bunlardan 1350 min kitab fondu olan 46 orta ixtisas müəssisələrinin kitabxanaları, 1107500 kitab fondu olan 98 peşə məktəbi kitabxanaları, 7417500 kitab fondu olan 25 ali məktəb kitabxanaları, 53850665 kitab fondu olan 4500 orta ümumtəhsil müəssisələrinin kitabxanaları daxildir (1, s. 402). Müstəqillik illərində ulu öndərimiz H.Əliyevin və Prezidentimiz cənab İ.Əliyevin daimi diqqət və qayğısı nəticəsində ali təhsil müəssisələri böyük inkişaf yolu keçmiş, həm kəmiyyət, həm də keyfiyyətcə inkişaf edib təkmilləşmişdir.

Təsdiq edilən təhsil islahatları proqramında təhsil problemlərinin tədqiq edilib öyrənilməsi sahəsində ciddi araşdırmalar aparılması, eksperimentlər qoyulması, əsaslandırılmış elmi nəticələrin alınıb tədris prosesinə tətbiq edilməsi vəzifələri qarşıya qoyulmuşdur. Bu vəzifələri

təhsil kitabxanalarına da şamil etməyə ciddi ehtiyac var.

Kitabxana ali məktəbin aparıcı struktur bölmələrindən biri olub, təlim-tərbiyə və elmi-tədqiqat prosesini tədris, elmi, metodiki ədəbiyyatla və informasiya materialları ilə təmin edən və bilikləri təbliğ edən mənəvi və intellektual əlaqələrin yayılması mərkəzidir.

Kitabxana öz işində Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikasının Təhsil haqqında Qanununu, "Kitabxana işi haqqında Qanunu", dövlət və hökumət sənədlərini, Təhsil Nazirliyinin əmr və sərəncamlarını, Nazirlər Kabinetinin 2000-ci ildə təsdiq etdiyi "Ali məktəb kitabxanalarının Əsasnaməsi"ni rəhbər tutur.

Azərbaycanda müasir şəraitdə intensiv təhsil islahatlarının aparılması təhsil kitabxanalarının işinin yenidən qurulmasını, kitabxana işində ciddi islahatlar aparılmasını tələb edir. Müasir informasiyalaşdırılmış cəmiyyətdə təhsilin inkişaf təminatının təşkilində təhsil kitabxanalarının qarşısında çox böyük vəzifələr qoymuşdur. Bu vəzifələrin tam və qüsursuz yerinə yetirilməsi, təhsil kitabxanalarının kitabxana informasiya texnologiyası ilə təmin edilməsini, kitabxana işinin kompüterləşməsini tələb edir.

Azərbaycanda informasiyalaşdırılmış cəmiyyətə keçid prosesində kitabxanalar və onların kompüterləşməsinin vəziyyəti ilə tanış olarkən qeyd etmək lazımdır ki, informasiyalaşdırılmış cəmiyyətə keçidin kifayət qədər mürəkkəb və hərtərəfli proses olmasına baxmayaraq, Azərbaycanın mövcud şəraitində artıq bu prosesə keçid başlanıb.

İnformasiyalaşdırılmış cəmiyyətdə keçid prosesində müasir kitabxanalarımız informasiyanın toplanması, qorunması və yayılması üsul və vasitələrini təkmilləşdirməklə yanaşı, informasiyanın axtarışı və emalı vasitələrinə cəlb olunmalıdır. Sözsüz ki, internetdə çıxışı olan kitabxanalar öz informasiya mənbələrinin sayının artması və istifadəçilərinin tələbatını ödəmək üçün böyük imkanlar əldə edir.

Respublikamızda həyata keçirilən təhsil islahatları, təhsil prosesinin daha da təkmilləşməsi və intensivləşməsini tələb edir. Təhsil və tərbiyə prosesində bilavasitə iştirak edən kitabxanalar təhsilin informasiya təminatındakı işini gündən-günə təkmilləşdirməli, yeni iş forma üsullarından, kommunikasiya texnologiyalarından bacarıqla istifadə etməlidirlər.

Kitabxanalar informasiyalaşdırılmış cəmiyyət üçün əsas müəssisə olduğu kimi müasir kitabxanalar da informasiya texnologiyaları olmadan keçinə bilməz.

Yüksək texnologiyaya malik informasiya mərkəzləri yaratmadan, hər cür informasiyanın mərkəzi və saxlayıcısı olan kitabxanaları kompüterləşdirmədən informalaşdırılmış cəmiyyət qurmaq olmaz. Mənə elə gəlir ki, artıq bu sahədə görülən işlər öz müsbət həllini tapmışdır.

Ali məktəblərin yanında elmi-tədris və ictimai həyatda yaxından iştirak edən, professor-müəllim və tələbə kontingentinin informasiya tələbatını ödəyən elmi kitabxanalar təşkil edilmiş, ali məktəbin bir nömrəli laboratoriyası hesab edilən kitabxanalara xüsusi qayğı göstərilmiş, onun inkişafı, maddi-texniki bazasının kompüterləşdirilməsi diqqət mərkəzində olmuşdur. Son illərdə ali məktəb kitabxanaları daxili maliyyə vəsaiti hesabına kitab fondlarının yeni kitablarla ardıcıl komplektləşdirilməsinə nail olmuş, ali məktəblərin profilinə uyğun sənədlərlə, dövri nəşrlərlə, qəzet və jurnallarla təkmilləşdirmişdir.

Təhsil Nazirliyi sistemində fəaliyyət göstərən ali məktəb təhsil müəssisələri kitabxanaları öz istiqamətlərinə görə digər kitabxanalardan əhəmiyyətli dərəcədə fərqlənirlər. Azərbaycanda təhsil kitabxanalarının tarixi çox qədim olsa da, əsasən XX əsrin 20-ci illərində geniş inkişaf yoluna qədəm qoymuş təhsil kitabxanalarının çox şaxəli şəbəkəsi yaranmışdı (1. s. 124).

Bu kitabxanalar bilavasitə təhsil sisteminə daxil olmaqla təhsilin daha da təkmilləşməsinə , onun keyfiyyətinin yüksəldilməsinə, respublikamız üçün ali təhsilli kadrların hazırlanmasına və ümumiyyətlə, cəmiyyətimiz üçün kamil və intellektual səviyyəli insan yetişdirilməsinə xidmət edir. Ali məktəblərin bir nömrəli laboratoriyası hesab edilən ali məktəb kitabxanaları təhsil sisteminin aparıcı müəssisəsi olmaqla yanaşı, həmçinin elmin inkişafında, elmi kadrların yetişdirilməsində böyük rol oynayırlar.

Elmi kitabxanalar tipinə daxil olan ali məktəb kitabxanaları ölkədə elm və mədəniyyətin, xalq təsərrüfatının müxtəlif sahələri üçün yüksək ixtisaslı kadrlar hazırlanmasına kömək edən ali məktəbin struktur bölməsi kimi fəaliyyət göstərən kitabxana şəbəkəsidir. Ali məktəb kitabxanaları öz fondunu ali məktəbin profilinə uyğun konkretləşdirir, professor-müəllim heyətini, tələbə kollektivini elmi ədəbiyyatla, dərslik və dərs vəsaitləri ilə təmin edir, ali məktəbin illik elmi-tədqiqat işi haqqında hesabatların, elmi və elmi-metodik konfransların materiallarını, ali məktəbdə hazırlanan metodik materialları, habelə burada müdafiə olunmuş dissertasiyaları toplayır və mühafizə edir (5. s. 91).

Kitabxana fondlarının komplektləşdirilməsi baxımından ali təhsil müəssisələrinin kitabxanaları özlərinin spesifik xüsusiyyətləri ilə digərlərindən fərqlənirlər. Bu kitabxanaların spesifik xüsusiyyəti onunla müəyyən edilir ki, onlar tədris-tərbiyə prosesini, elmi-tədqiqat işini və professor - müəllim heyətinin metodiki işini təmin edir. Bundan əlavə ali məktəbin kitabxana fondları tələbələrin elmi dünyagörüşünün, estetik elmi-texniki biliklərinin inkişafına təsir göstərirlər.

Ali məktəbin profilinə uyğun olaraq onun fondu ilk növbədə tədris ədəbiyyatı və əyani vəsaitlərlə daha da geniş komplektləşdirilir. Ali məktəb kitabxanaları eyni zamanda öz fondunda rəsmi, elmi, elmi-texniki və məlumat nəşrlərini də toplayır. Bu kitabxanaların komplektləşdirilməsinin ən vacib xüsusiyyəti oxucuların kitab təminatının yüksək olmasıdır.

Onu qeyd etmək lazımdır ki, Respublika ali məktəblərinin beynəlxalq əlaqələrinin genişlənməsi kitabxana fondlarının xarici dildə ədəbiyyatla komplektləşdirilməsi üçün şərait yaratmışdır.

Hazırkı dövrdə respublikamızın ali məktəb kitabxanaları müasir dünya standartlarına cavab verən, oxucuların informasiya təminatını qüsursuz ödəməyə səy göstərən, elmi-mədəni kompleksli informasiya mərkəzinə çevrilmişdir. Artıq bir neçə ildir ki, BDU-nun Elmi kitabxanasının nəzdində fəaliyyət göstərən "Kitabxana işinin kompüterləşdirilməsi" Elmi-tədqiqat laboratoriyası Kitabxanaşünaslıq elminin banisi, professor A.Xələfovun rəhbərliyi altında təhsilin informasiya təminatının modernləşdirilməsi sahəsində xeyli iş görmüşdür.

Oxucu tərkibi ilə tanış olarkən məlum olur ki, ali məktəbdə işləyən bütün professor-müəllim heyəti və tələbə kontingenti kitabxanaların oxucularıdır. Son illərdə ali məktəb kitabxanalarında müasir kitabxana avadanlıqları kompüter informasiya texnologiyaları ilə təchiz edilmiş internet şəbəkəsinə qoşulmuş geniş qiraət zalları açıldığından oxucuların sayı xeyli çoxalmışdır.

Ali məktəb kitabxanaları içərisində universitet kitabxanaları xüsusi yer tutur. Bu kitabxanalar ali məktəb kitabxanalarına xas olan vəzifələri yerinə yetirməklə bərabər, universitet təhsilinin xüsusiyyətlərinə, birinci növbədə tələbələrin ümumi elmi hazırlığına, onlarda elmi-tədqiqat fəaliyyət vərdişlərinin yaradılmasına, ali məktəbin tarixinə, müəllimlərin elmi və pedaqoji fəaliyyətinin biblioqrafik vəsaitlərdə əks etdirilməsinə xüsusi diqqət yetirir (5. s. 92).

Ali məktəb kitabxanaları mənsub olduqları ali təhsil müəssisələrinin soraq informasiya və tədris bazası kimi çıxış edərək, gənc mütəxəssis hazırlığında, ali məktəb elminin inkişafında iştirak edən bütün struktur bölmələrə yaxından kömək göstərirlər.

Kitabxana hər bir ali məktəbin bir nömrəli laboratoriyası, tədris və elmi bazasıdır (1. s. 135).

Tədris və elmin informasiya bazası kimi kompüterləşmiş ali məktəb kitabxanaları öz oxucularının internetdən, elektron kataloqdan və elektron kitabxanalardan istifadəsini təmin etməlidir (1. s. 136).

Respublikamızın ali məktəb kitabxanaları kitabxana işinin bütün forma və üsullarından istifadə etməli, oxucularla aparılan informasiya işini cəmiyyətin qarşıya qoyduğu vəzifələrin yerinə yetirilməsinə, milli ideologiyamızın təbliğinə, dövlətçiliyimizin möhkəmləndirilməsinə yönəltməlidir. Kitabxanalar informasiya xidmətini daha dolğun təşkil etmək üçün digər informasiya orqanları ilə əməkdaşlığa, kitabxana işinin əlaqələndirilməsinə, informasiya ehtiyatlarından səmərəli istifadə işinə də diqqət yetirməlidirlər.

**Hansı ölkədə təhsil sistemi daha yaxşıdırsa, hansı ölkə zamanın tələbləri ilə ayaqlaşırsa və bilikləri daha yaxşı idarə edirsə, hansı ölkə öz milli mədəniyyəti və həyat tərzini cəmiyyətdə daha geniş yaymışdırsa və bu dəyərləri daha da çox təbliğ edirsə müasir dünyamızda baş verən intellektual rəqabət savaşında məhz həmin ölkə qalib gələr.**

● **İradə ƏLİYEVA,**
***Dövlət Elmi Tibb kitabxanasının baş kitabxanaçısı***

## Ədəbiyyat

1. Xələfov A. Kitabxanaşünaslığa giriş. Bakı - 2001.
2. Xələfov A. Informasiya cəmiyyəti və kitabxana işi. Bakı Universitetinin Xəbərləri. Humanitar elmlər seriyası. № 3.
3. Xələfov A. İnformasiyalaşdırılmış cəmiyyətin xüsusiyyətləri və problemləri. "Respublika". 17 aprel 2002-ci il.
4. Xələfov A, Kazımov R, Bədəlov E. Kitabxana işçisinin məlumat kitabı. Bakı - 1987.
5. Kitabxanalar biliklər cəmiyyətində. Bakı - 2006.

**Резюме**

В данной статье рассматриваются вопросы, связанные с оценкой современного состояния информационного обеспечения системы образования посредством эффективной организации библиотечного обслуживания в высших учебных заведениях с целью достижения высоких результатов по усвоению учебных программ, а также предлагаются рекомендации по обеспечению данной системы необходимой научной информацией.

**Summary**

In given clause the questions connected to an estimation of a modern condition of a supply with information of an education system by means of the effective organization of library service in higher educational institutions with the purpose of achievement of high results on mastering of curriculums are considered, and also recommendations on maintenance of the given system with the necessary scientific information are offered.